

# “Bu, mənim yadımdan çıxmayacaq”

**_Ermənistan Ordusu oktyabrın 10-dan etibarən humanitar atəşkəslə bağlı Moskva razılaşmasını kobud şəkildə pozaraq təmas xəttindən xeyli uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncəni raket atəşinə tutub. Nəticədə 9 mülki şəxs həlak olub, o cümlədən aralarında azyaşlı uşaqlar olmaqla, 35 nəfər yaralanıb. Bununla da düşmən ölkə Azərbaycana qarşı kin-küdurətini, təcavüzkar siyasətini bir daha nümayiş etdirib. İşğalçı dövlət dinc insanları, evləri, mülki obyektləri məqsədli şəkildə atəşə tutmaqla, həm də beynəlxalq hüququn əsas normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymamasını açıq-aydın göstərib._**



Bu məqamda diqqəti dağıntılar altından müxtəlif xəsarətlərlə çıxarılan azyaşlı Ömər Nəsirovun: “Qorxdum. Bu mənim yadımdan çıxmayacaq”, – sözlərinə yönəltmək istərdim.

Bəli, Ömər 2020-ci ilin 11 oktyabr gecəsini heç vaxt unutmayacaq. Erməni faşistlərinin törətdiyi dəhşətlərini – yerin-göyün lərzəyə gəlməsini, qorxunc partlayışı, evlərinin yerlə yeksan olmasını, özünün dağıntılar arasında qalmasını heç vaxt yaddan çıxartmayacaq.

Ömər çox şübhəsiz ki, Ağdam, Tovuz, Beyləqan, Ağcabədi, Tərtər, Bərdə, Daşkəsən və digər ərazilərimizdəki yaşıdlarının da atəşə tutulduqlarından xəbərdardır. Yaxşı bilir ki, yağı təkcə özü kimi uşaqları deyil, həm də nənə-babalarını, ata-analarını hədəfə almaqdan çəkinmir, yaxşı bilir ki, mənfur düşmən heç kimə rəhm etmir, hətta qana susadıqlarını belə dünyadan gizlətmir.

Amma bu balacanın bəlkə də düşmənin 29 il bundan əvvəl elə indiki kimi gecə vaxtı Xocalıda törətdiyi qətliamdan xəbəri yoxdur: o qanlı olay zamanı böyüklərlə bərabər uşaqlara qarşı məz bu cür vandallıq edilmişdi, gühansız körpələr, yeniyetmələr amansızlıqla, işgəncələrlə öldürülmüşdü, başları kəsilmişdi, gözləri çıxarılmışdı, dəriləri soyulmuşdu, süngüyə taxılmışdı…

Xocalı qətliamından sağ çıxan uşaqlar indi böyüyüblər. Yəqin ki, aralarında indi Qarabağın haqq savaşında–torpaqlarımızın yağılardan xilas edilməsində silaha sarılanlar da var. Uşaq yaddaşı möhkəm, silinməz olur – onlar 29 il bundan əvvəlki erməni vəhşiliyini unutmayıblar. Doğma yurd-yuvalarına qayıtmaq arzusu ilə düşmənə qarşı qətiyyətlə mübarizə aparırlar. Amma heç vaxt, heç vədə dinc sakinlərə, məsum körpələrə atəş açmağı belə ağıllarına gətirmirlər. Çünki bunun nə demək olduğunu ağrılı həyatlarından yaxşı bilirlər.

Yeri gəlmişkən, balaca Ömərin erməni terroru ilə bağlı yaşadığı dəhşəti ağrı-acı Türkiyənin “Haber Global” kanalında da nümayiş olunub. Qardaş ölkənin həmin kanalında erməni vandallığı ilə əlaqədar hazırlanan süjet təqdim edilərkən, göz yaşlarını saxlaya bilməyən aparıcı Xocalıda törədilən qətliamdan bir körpə fotosu ilə bərabər, Ömərin də qan içindəki görüntüsünə diqqət çəkir və “Dünya bu şiddətə nə qədər susacaq? Soldakı foto 90-cı illərdə ilk Dağlıq Qarabağ müharibəsində, sağ tərəfdəki foto isə bu gün Gəncədə çəkilib”, – deyir.

Süjetdə Ermənistan ordusunun mülki şəxslər sırasında uşaqları da hədəf aldığı bildirilir: “Əslində bu, Azərbaycan üçün tanış ağrıdır… Bu foto 90-cı illərdə Birinci Dağlıq Qarabağ müharibəsində çəkilib. Xocalı soyqırımının baş verdiyi, bir milyondan artıq azərbaycanlının evini, obasını tərk etmək məcburiyyətində qaldığı o dönəmlərdə… Azərbaycanlı qız uşağının üzündə ağrı, üsyan və çarəsizlik var. Qucağında olan bələkdəki qardaşı onunla bərabər erməni zorakılığından qaçarkən belə görüntülənmişdi…”.

Aparıcı sözügedən süjetin sonunda balaca Ömərin Gəncədə çəkilən fotosu barədə də danışaraq deyir: “Başından yaralanan uşaq Ermənistanın sivilləri hədəf alan hücumların son qurbanlarından biridir. İndi cavabı verilməli bir sual var: Dünya bu şiddətə daha nə qədər susacaq?”

Əslində bu sualın cavabı hamımıza aydındır: Dünya 1988-ci ildən bu yana erməni cəlladları tərəfindən azərbaycanlıların Qərbi Azərbaycanda, Dağlıq Qarabağda və ətraf bölgələrdəki dədə-baba yurdlarından didərgin salınanda susub. Dünya Ermənistanın BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini yerinə yetirməyəndə susub. Dünya işğalçı ölkənin baş naziri Nikol Paşinyanın mənfur əməlləri ilə dəfələrlə sülh danışıqlarını pozanda, Dağlıq Qarabağda “düşmənin qarşısının alınması” mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparanda, ayrı-ayrı vaxtlarda “Artsax Ermənistandır, nöqtə” kimi təcavüz xarakterli şüarlar səsləndirəndə susub. Dünya Ermənistanın siyasi rəhbərliyinin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasətini davam etdirəndə, terrorçuları həmin bölgələrdə yerləşdirəndə susub.

Laqeydlik bununla bitməyib. Nüfuzlu dövlətlər, beynəlxalq qurumlar Ermənistanın vəhşi hücumları ilə BMT-ni, beynəlxalq hüququ hədəfə alanda, özü terrorçu dövlət olduğu halda, ATƏT-in Minsk qrupu ölkələrinə Azərbaycanın cinayətkar olması barədə uydurmalar, həqiqətdən uzaq yalanlar söyləyəndə biganəlik göstəriblər. Onlar, hətta düşmənin döyüşdə uduzduğunu anladığına görə, təxribatlara əl atmaqla, mülki vətəndaşlarımızı atəşə tutmaqla, infrastrukturumuzu dağıtmaqla qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini görəndə də susublar.

Dünya, nəhayət, Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə işğalçı ölkənin silahlı qüvvələri tərəfindən regionun ən böyük strateji layihəsi olan Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələrinin endirilməsini qulaqardına vurub.

Bu gün Azərbaycan xalqının Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və ordumuzun ətrafında sıx birləşməsi, minlərlə gəncin hərbi əməliyyatlarda könüllü şəkildə iştirak etməklə bağlı dövlət qurumlarına müraciəti vətəndaşlarımızın yüksək əhval-ruhiyyəsindən, mübarizə əzmindən xəbər verir. Hazırda hər bir ailə başçısı övladının ön xətdə olmasından, düşmənə qarşı fəal hərbi əməliyyatlara qatılmasından iftixar hissi keçirir. Düşmən özünün tamamilə darmadağın olacağı, Azərbaycan Ordusunun mərhəmətinə möhtac qalacağı günün uzaqda olmadığını bilsə də belə mənfur əməllərini davam etdirir.

Hələ ki, gec deyil, dünya ölkələri Ermənistanın yalnız Azərbaycan üçün deyil, bölgədəki hər bir dövlət üçün təhdid və təhlükə mənbəyi olmasını bilməlidirlər, qonşu xalqlara qarşı davamlı şəkildə ərazi iddiaları irəli sürən, ərazisində terror təşkilatları yerləşdirən Ermənistanın nə vaxtsa, onlar üçün də böyük təhlükə mənbəyi olacağını da unutmamalıdırlar. Buna görə də gecikmədən Azərbaycanın haqq işini tam şəkildə müdafiə etməli, terrorçu Ermənistana təzyiq göstərməklə onun neytrallaşdırılmasını gerçəkləşdirməlidirlər.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**

Xalq qəzeti.- 2020.- 13 oktyabr.- S.9.